**Azərbaycan Respublikası adından**

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin İnzibati Kollegiyası**

# Q Ə R A R D A D

**(№ 01/2023)**

***İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair***

**Bakı şəhəri**

**2023-cü il 06 noyabr**

**Azərbaycan Respublikasının Ali Məhkəməsinin**
**İnzibati Kollegiyası**

Məmmədov Xəqani Səyyad oğlunun sədrliyi ilə,
Rəsulbəyova Nigar İmran qızı,
Quliyev Zakir Müslüm oğlu,
Bədəlov Kəmaləddin Nurəddin oğlu,
Hüseynov İlqar Kamil oğlu,
Nəbizadə Rahib Sahib oğlu,
Kərimov Səyyad Əli oğlundan ibarət tərkibdə,
Qafarzadə Ləman İsbəndiyar qızının katibliyi ilə,

İddiaçı Abdullayev Novruzəli Məhərrəm oğlunun cavabdeh Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsinin Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına qarşı əmək pensiyasının ödənilməsinin bərpa edilməsi tələbinə dair iş üzrə mübahisəli hüquqi məsələyə dair hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məsələsinə baxaraq aşağıdakı qərardadı qəbul etdi.

## I. Mübahisəli hüquqi məsələnin məzmunu

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qaradağ rayon şöbəsinin 2016-cı il 26 dekabr tarixli qərarı ilə Abdullayev Novruzəli Məhərrəm oğluna 2016-cı il 01 iyul tarixdən güzəştli şərtlərlə yaşa görə əmək pensiyası təyin edilmişdir.

*2.* 2020-ci ilin 01 dekabr tarixindən cavabdeh iddiaçıya pensiya ödənişini dayandırmışdır. İddiaçının pensiya ödənişinin bərpa edilməsinə dair müraciətini cavabdeh "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.8.3-cü maddəsinə istinadla təmin etməkdən imtina etmişdir. Cavabdeh ona əsaslanmışdır ki, sonradan aparılmış araşdırmalar nəticəsində iddiaçıya əvvəllər pensiyanın qanunvericiliyin tələblərinə riayət edilmədən təyin edildiyi müəyyən olunmuşdur.

3. Bundan sonra, iddiaçı Bakı İnzibati Məhkəməsinə müraciət edərək 01 dekabr 2020-ci il tarixdən güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının yenidən ödənilməsi və həmin dövrdən indiyə kimi ödənilməmiş qalıq məbləğin birdəfəlik verilməsi öhdəliyinin cavabdehə həvalə edilməsi barədə qərar qəbul edilməsi xahiş etmişdir.

4. Digər tərəfdən, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı iddia ərizəsi ilə Bakı İnzibati Məhkəməsinə müraciət edərək iddiaçıya artıq ödənilmiş 14225.68 manat pensiya məbləğinin cavabdehə qaytarılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

5. Bakı İnzibati Məhkəməsinin 2-1(112)-8094/2021 saylı, 2021-ci il 03 sentyabr tarixli qərardadı ilə sözügedən işlərə birgə baxılması və vahid qərarın qəbul edilməsi məqsədə müvafiq hesab edilməklə hər iki iş bir icraatda birləşdirilmişdir.

6. Bakı İnzibati Məhkəməsinin 2-1(112)-1351/2022 saylı, 2022-ci il 17 may tarixli qərarı ilə birinci iş üzrə iddiaçı Abdullayev Novruzəli Məhərrəm oğlunun iddiası təmin edilmiş, Abdullayev Novruzəli Məhərrəm oğluna təyin edilmiş əmək pensiyasının dayandırıldığı 01.12.2020-ci il tarixdən bərpa edilməsi və həmin dövrdən indiyə kimi ödənilməmiş qalıq məbləğin birdəfəlik verilməsi öhdəliyi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına həvalə edilmiş, iddiaçı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının cavabdeh Abdullayev Novruzəli Məhərrəm oğluna qarşı "artıq ödənilmiş pensiya məbləğinin qaytarılması" tələbinə dair iddiası təmin edilməmişdir.

7. Cavabdeh apellyasiya şikayəti verərək, həmin qərarın ləğv edilməsini, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının cavabdeh Abdullayev Novruzəli Məhərrəm oğluna qarşı "artıq ödənilmiş pensiya məbləğinin qaytarılması" tələbinə dair iddiasının təmin edilməsi, Abdullayev Novruzəli Məhərrəm oğlunun pensiyanın dayandırıldığı tarixdən bərpa olunaraq ödənilməsi barədə tələbinin isə rədd edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

8. Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-1(103)-701/2023 saylı, 2023-cü il 12 yanvar tarixli qərarı ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmışdır.

9. Cavabdeh kassasiya şikayəti verərək, apellyasiya instansiya məhkəməsinin qərarının ləğv edilməsi, Abdullayev Novruzəli Məhərrəm oğlunun iddiasının rədd edilməsi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsinin Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının iddiasının isə təmin edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

10. Kassasiya icraatı zamanı mübahisəli hüquqi məsələyə dair kassasiya şikayətinin mümkünlüyü məsələsinə əvvəlki hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməli olduğu ilə bağlı təşəbbüslə çıxış edən işə baxan məhkəmə tərkibi hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə təqdimatla müraciət etmişdir.

11. Təqdimatın dəlillərinə görə hazırkı iş üzrə mübahisənin predmetini bir-biri ilə əlaqəli iki məsələ təşkil edir - şəxsə ödənilən pensiyanın inzibati orqan tərəfindən dayandırılmasının qanuniliyi və artıq ödənilmiş pensiya məbləğinin qaytarılmasının yolverilənliyi və əsaslılığı.

12. Məhkəmələrin pensiyasının dayandırılmasının qanunsuz olması və bu səbəbdən də pensiya məbləğinin qaytarılmasının əsassız olmasına dair hüquqi mövqeləri onunla əsaslandırılmışdır ki, əmək pensiyasının dayandırılması zamanı inzibati akt qəbul edilməmiş, ümumiyyətlə, pensiyanın dayandırılmasından öncə, cavabdeh tərəfindən inzibati icraatın öz təşəbbüsü ilə başlanması üçün əsasların nə ilə bağlı olduğu, yəni iddiaçıya təyin edilmiş pensiyanın qanuniliyinin araşdırılması barədə cavabdehin istinad etdiyi daxili araşdırmanın aparılmasına dair qərarın qəbul edildiyi, inzibati icraatın hansı qaydada aparılması, inzibati icraat barədə tərəfin məlumatlandırılması, inzibati icraatda iddiaçının iştirakının, həmçinin onun dinlənilmə hüququnun təmin edilməsi, sübutların obyektiv araşdırılması, etimad hüququnun gözlənilib-gözlənilməməsi, başqa sözlə, aparılan icraatın “İnzibati icraat haqqında” Qanunun tələblərinə uyğun aparıldığı müəyyən olunmamışdır. Yəni, cavabdeh inzibati orqan iddiaçını inzibati icraata dəvət etmədən, araşdırmanı onun iştirakı ilə aparmadan, sonuncunun məzmununa etimad göstərdiyi pensiya təyinatı ilə bağlı inzibati aktı qüvvədə olduğu halda, onun icrasının dayandırılması barədə ayrıca inzibati akt qəbul etmədən, bununla da, pensiya təyinatı üzrə ödənişin dayandırılması barədə faktiki xarakterli hərəkətlər etməklə iddiaçının qanunla qorunan pensiya təminatı hüququna qanunsuz olaraq müdaxilə etmişdir.

13. Kassator isə şikayətində onun tərəfindən inzibati icraatın aparılması qaydalarının pozulması ilə pensiyanın dayandırılmış olmasının qanuna ziddliyi barədə apellyasiya instansiya məhkəməsinin mövqeyinə münasibət bildirməmiş, yalnız “İnzibati icraat haqqında” Qanunun 67-ci maddəsinə əsasən şəxsin etimad hüququnun qorunmadığına istinad etmişdir.

14. Hazırki işə baxan məhkəmə tərkibi qeyd etmişdir ki, Ali Məhkəmənin İnzibati Kollegiyasının əvvəllər oxşar işlər üzrə qəbul etdiyi bir çox qərarlarda ifadə olunmuş hüquqi mövqelərdə aşkar və birmənalı şəkildə pensiya ödənişinin inzibati icraatın qaydalarına uyğun olmayaraq dayandırılmasının qanunazidd olması göstərilmişdir. Belə ki, Ali Məhkəmənin qərarlarında qeyd edilmişdir ki *(2-1(102)1175/2022, 2-1(102)1297/2022, 2-1(102)12/2023, 2-1(102)160/2023 saylı və s. işlər),* inzibati orqanlar sonradan əldə edilmiş hər hansı məlumat və sübutlar əsasında əvvəllər aparılmış pensiya təyinatının və ya verilmiş əlilliyin qanunsuz olduğu qənaətinə gələ bilmək üçün mütləq yeni bir inzibati icraat aparmalı və onun nəticəsində müvafiq qərar qəbul etməlidirlər. Əldə edilmiş yeni məlumat və ya sübutlar yalnız inzibati icraatın başlanmasının (təzələnməsinin) əsasını təşkil edə bilər, heç bir halda pensiya və ya əlillik təyin edilməsinə dair əvvəlki əlverişli inzibati akt ləğv edilmədən və ya dəyişdirilmədən onun əsasında aparılan ödəmələr dayandırıla bilməz.

15. İddiaçıya əmək pensiyasının inzibati orqanın özü tərəfindən təyin olunduğu hallarda, inzibati orqan sonradan pensiya ödənişini dayandırmağa haqlıdır. Lakin bu haqqından istifadə edərək pensiya ödənişinin dayandırılması barədə məsələni həll edən zaman cavabdeh həm “Əmək pensiyaları haqqında” Qanunun pensiya ödənişinin dayandırılması ilə bağlı normasının, həm də “İnzibati icraat haqqında” Qanunun inzibati icraatla bağlı normalarının tələblərini birgə nəzərə almağa borcludur. “İnzibati icraat haqqında” Qanunun 67.2-ci maddəsinin tələbləri baxımından inzibati akt hətta

qanunsuz sayıldığı təqdirdə belə, həmin inzibati akt yalnız istinad olunan qanunla müəyyən olunmuş prosedurlara və şərtlərə riayət edilməklə ləğv oluna və ya dəyişdirilə bilər. Yəni, inzibati orqan, şəxsə münasibətdə əlverişli xarakter daşıyan qərarını ləğv etmək və ya dəyişdirmək istədiyi bütün hallarda əvvəlki icraat nəticəsində qəbul olunmuş qərarın ləğvi əsaslarının və şərtlərinin, eləcə də qərarın ləğvini və ya dəyişdirilməsini istisna edən halların mövcudluğunu müəyyən etməyə, onların müəyyən olunduğu təqdirdə ilkin qərarı ləğv edərək həmin qərarın qəbulu üzrə icraatı "İnzibati icraat haqqında" Qanunun 35-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq təzələməyə, yeni inzibati icraat aparmağa, maraqlı şəxsi icraata cəlb etməyə və onun dinlənilmə hüququnu təmin etməyə, qanunvericiliyin tələbinə uyğun aparılmış icraat nəticəsində yeni qərar qəbul etməyə borcludur. Bu zaman inzibati orqan, həm də "İnzibati icraat haqqında" Qanunun 13-cü və 67.5-ci maddələrinə əsasən şəxsin etimadın qorunmasına olan hüququnu da nəzərə almalıdır.

16. Hazırkı işin hallarından göründüyü kimi cavabdeh iddiaçıya daha əvvəl qərarla (inzibati aktla) təyin edilmiş əmək pensiyası üzrə ödənişi dayandırarkən qanunvericiliyin tələb etdiyi qaydada lazımi icraat aparmamış və hər hansı qərar (inzibati akt) qəbul edilməmişdir. Göründüyü kimi, təkrarlanan mübahisələr üzrə işlərə artıq Ali Məhkəmədə dəfələrlə baxılmasına və həmin işlər üzrə formalaşmış məhkəmə təcrübəsinin mövcudluğuna baxmayaraq yenidən eyni əsaslarla vətəndaşların müraciətlərinin təmin edilməməsi, daha sonra isə həmin işlər üzrə çıxarılmış məhkəmə qərarlarından Ali Məhkəməyədək şikayətlərin verilməsi təcrübəsi qalmaqda davam etmişdir.

17. İcraat iştirakçılarının verdiyi kassasiya şikayətlərinin mümkünlüyü ilə bağlı məsələyə münasibətdə Ali Məhkəmənin İnzibati Kollegiyasının əksər işlər üzrə bugün də tətbiq etdiyi yanaşma ondan ibarətdir ki, şikayətin məzmununda işin hallarının, məhkəmələrin gəldiyi nəticələrin göstərilməsi, o cümlədən maddi və prosessual hüquq normalarına sadəcə onların sadalanması yolu ilə istinad edilməsi həmin şikayətin "əsaslandırılmış" hesab edilməsi üçün kifayətdir.

18. Hazırkı işə baxan məhkəmə tərkibi isə hesab etmişdir ki, oxşar mübahisələr üzrə kassasiya instansiyası məhkəməsinin əvvəlki qərarlarında müəyyən etdiyi hüquqi mövqedən fərqli yanaşma tətbiq edilməli, Ali Məhkəmə şikayətin əsaslandırılmasına dair məsələyə münasibətdə özünün yanaşmasını və hüquqi mövqeyini dəyişməli, eləcə də qeyd edilən məsələ ilə sıx bağlı olan bir sıra başqa məsələlərə dair də hüquqi mövqeyini dəqiqləşdirməlidir.

19. Belə ki, məhkəmə tərkibinin qənaətinə görə kassasiya şikayətinin mümkünlük meyarlarından biri olan "əsaslandırma" müəyyən qabaqcadan öngörülə bilən ağlabatan şərtləri ehtiva etməli və dar mənada təfsir olunmamalıdır. Sözügedən məsələyə münasibətdə hüquqi yanaşmanın müəyyənləşdirilməsi üçün İPM-in 91 və 94.2-ci maddələrinin müddəaları nəzərdən keçirilməlidir.

20. İPM-nin 91-ci maddəsinə əsasən Ali Məhkəmə mübahisə ilə bağlı işə şikayət həddində baxır və yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Həmin Məcəllənin 94.2-ci maddəsində isə həmçinin təsbit edilmişdir ki, "...şikayət əsaslandırılmalıdır". Qeyd edilən müddəaların birgə təhlili onu deməyə əsas verir ki, kassasiya şikayətində apellyasiya instansiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının pozuntusunun nədən ibarət olduğu işin halları ilə əlaqəli şəkildə ətraflı təsvir edilməli, başqa sözlə, normaların yalnız sadalanması ilə kifayətlənilməməli, apellyasiya instansiya məhkəməsinin gəldiyi nəticənin konkret hansı normaya və nəyə görə zidd olması lazımi qaydada əsaslandırılmalıdır.

21. Məhkəmə tərkibi hesab etmişdir ki, kassasiya şikayətində həm də apellyasiya instansiya məhkəməsinin qərarının baxılan məsələ üzrə mövcud məhkəmə təcrübəsinə uyğunluğu ilə bağlı məsələyə münasibət də əks olunmalıdır. Əks yanaşma, Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi yaratmaqla bağlı funksiyasının

əhəmiyyətsizliyinə gətirib çıxara bilər. Bu mənada, baxılan iş üzrə vahid məhkəmə təcrübəsi mövcud və aydın olduqda, eləcə də həmin təcrübə kifayət qədər müddət ərzində tətbiq edilməklə sabit təcrübəyə çevrildikdə, həmçinin təcrübə ictimaiyyət üçün əlçatan və tərəflərə bəlli olduqda, əgər kassasiya şikayəti həmin təcrübəni nəzərə almadan və ya təcrübəni dəyişdirməyə yönəlmiş yeni dəlillərə istinad olunmadan verilmişsə, şikayət əsaslandırılmamış hesab edilməli və baxılmaq üçün icraata qəbul olunmamalıdır.

22. Ali Məhkəmənin formalaşmış məhkəmə təcrübəsinə uyğun çıxarılmış qərarlardan verilmiş şikayətlər heç bir əhəmiyyətli yeni faktiki və hüquqi dəillərə istinadla əsaslandırılmamışsa, həmin şikayət “formal” xarakter daşımaqla, məhkəmə prosesinin müddətinin uzanmasına, şəxslərin hüquqlarının bərpasının yubanmasına, məhkəmələrin əsassız olaraq işlə yüklənməsinə gətirib çıxarır. Əks hal, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini təmin etməyə imkan verən hüquqi mexanizmlərin əhəmiyyətini heçə endirir.

23. Qeyd edilənləri nəzərə almaqla məhkəmə tərkibi hesab etmişdir ki, iş üzrə verilmiş kassasiya şikayəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında, Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarında, İPM-in 98-1-ci maddəsində müəyyən edilmiş qaydada qəbul edilmiş qərardadlarda, habelə baxılan işlər üzrə məhkəmə tərkiblərinin və Ali Məhkəmənin Plenumunun qərarlarında təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin dəyişdirilməsinə nail olmaq məqsədilə yeni faktiki və hüquqi dəlillərə istinadla əsaslandırılmadıqda, şikayət lazımi qaydada əsaslandırılmamış hesab edilməlidir. Belə şikayətlər əsaslandırma tələbinə riayət edilmədən verilmiş şikayət hesab edilməklə mümkün sayılmamalıdırlar.

24. Yuxarıda göstərilmiş hüquqi mövqeni nəzərə alan məhkəmə tərkibinin qənaətinə görə cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti qeyd olunan tələblərə uyğun əsaslandırılmadığından şikayətin qəbulundan imtina edilməklə kassasiya mümkün sayılmamalıdır.

25. Odur ki, mübahisəli hüquqi məsələyə dair hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin (bundan sonra İPM) 98-1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizmdən istifadə olunmasına qərar verilmişdir.

**II. Məhkəmənin mövqeyi**

26. Həll edilməli olan hüquqi məsələ əsaslandırılmış kassasiya şikayətinin meyarlarını müəyyənləşdirmək və həmin tələblərə cavab verməyən şikayətlərin mahiyyəti üzrə baxılmağa qəbul edilmədən mümkün sayılmamasının yol verilənliyinə qiymət verməkdən ibarətdir.

27. Bunun üçün, ilk növbədə, hər bir şəxsin ayrılmaz hüququ olan məhkəmə müdafiəsi hüququ, bu hüququn həyata keçirilməsinə qanunverici tərəfindən müəyyən ağlabatan prosessual məhdudiyyətlərin qoyulmasının mümkünlüyü və bu zaman ədalət mühakiməsinin maraqları da nəzərə alınmaqla, fərdi və ümumi maraqlar arasında ədalətli balansın qorunmasının zəruriliyi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyasında və beynəlxalq hüquqi aktlarda, eləcə də həmin hüququn reallaşdırılmasının əsas qaydalarını müəyyən edən İnzibati Prosessual Məcəllədə təsbit olunmuş bir sıra müddəaların nəzərdən keçirilməsi zəruridir.

***hüquq və azadlıqların məhkəmə təminatı, yol verilən məhdudiyyətlər***

28. Azərbaycan Respublikasının Konstitusiyasına görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir (Konstitusiyanın 26-cı maddəsi və 60-cı maddəsinin I hissəsi).

29. Bu maddə təsbit edilmiş məhkəmə müdafiəsi hüququ, hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, səlahiyyətli milli məhkəmələr tərəfindən işinin ədalətli araşdırılmasını, eləcə də məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu da ehtiva edir.

30. Hüquq və azadlıqların məhkəmə təminatı yalnız birinci instansiyada məhkəmə müdafiəsinin təmin olunmasını deyil, bu hüququn həmçinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada apellyasiya və kassasiya instansiyalarında həyata keçirilməsini də nəzərdə tutur. Qanunvericilikdə nəzərdə tutulmuş hər hansı məhkəmə instansiyasına şikayət etmək hüququ məhkəmə müdafiəsi hüququnun mahiyyətindən irəli gəlməklə hüququn aliliyinin təmin edilməsi məqsədinə yönəlir.

31. Bununla yanaşı, məhkəmə müdafiəsi mütləq xarakter daşımır və qanunvericilik tərəfindən müəyyən edilmiş hədlərdə konkret məhdudiyyətlərə məruz qala bilər. Məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran tədbirlər ədalət mühakiməsinin maraqlarının da daxil olduğu legitim məqsədlərə nail olmaq üçün tətbiq edilməli və qanuni məqsəd daşımalıdırlar. Eləcə də, istifadə edilən vasitələrlə çatılmaq istənilən məqsəd arasında ağlabatan mütənasiblik olmalıdır. Bu məhdudiyyətlər hüquq və azadlıqların əsas mahiyyətinə toxunmamalı, onların əsl mahiyyətini zədələyəcək şəkildə və miqyasda həyata keçirilməməlidir.

*32.* Hüquq və vəzifələrin həcminin prosessual qaydalar çərçivəsində məhdudlaşdırılması hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə, məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasına, ədalət mühakiməsinin daha səmərəli və ədalətli həyata keçirilməsinə xidmət edir. Eyni zamanda, yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv etməməlidir. Bu məhdudiyyətlər hər hansı şəxsin iradəsindən asılı olmayaraq, müvafiq hüquqa mütənasib şəkildə qanunvericinin müəyyən etdiyi hədlər çərçivəsində düzgün tətbiq edilməlidir. *(Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair” 2020-ci il 24 iyul tarixli Qərarı).*

*33.* Məhkəmələrə müraciət etmək hüququ mütləq deyil, məhdudiyyətlərə məruz qala bilər; belə məhdudiyyətlərə dolayı formada yol verilir, çünki məhkəməyə müraciət etmək hüququ xarakterinə görə dövlət tərəfindən tənzimlənmə tələb edir və belə tənzimləmə cəmiyyətin və fərdlərin ehtiyaclarına və resurslarına uyğun olaraq zamana və məkana görə dəyişilə bilər. Bununla belə, tətbiq edilən məhdudiyyətlər, şəxslərin məhkəməyə müraciət hüququnu, bu hüququn mahiyyətinə xələl gətirəcək formada və ya həddə məhdudlaşdırmamalıdır. Əgər məhdudiyyət legitim məqsəd güdmürsə və istifadə edilən vasitələrlə nail olmaq istənilən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi yoxdursa, məhdudiyyət Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə uyğun olmayacaqdır *(bax, Zubac Xorvatiyaya qarşı (Böyük Palata), 05.04.2018, No.40160/12, §77-78).*

*34.* Konvensiyanın 6-cı maddəsində Razılığa gələn dövlətlərin apellyasiya və ya kassasiya instansiyaları məhkəmələri yaratmaları təkid edilmir. Lakin belə məhkəmələr mövcuddursa, Konvensiyanın 6-cı maddəsinin təminatlarına əməl edilməsi tələb edilir. *(bax, Zubac Xorvatiyaya qarşı (Böyük Palata), §80, Platakov Yunanıstana qarşı, 11.01.2001, No.38460/97, §38).* Bu, xüsusilə də şikayətin qəbuledilənlik şərtlərinə aiddir, çünki bu məsələ təbiət etibarilə, həmin sahədə müəyyən mülahizə sərbəstliyinə malik olan dövlət tərəfindən tənzimlənmə tələb edir *(Luordo İtaliyaya qarşı iş üzrə 17.10.2003, No.32190/96).* Bundan əlavə, apellyasiya və ya kassasiya məhkəmələrinə münasibətdə Konvensiyanın 6-cı maddəsinin tətbiqi zamanı müvafiq instansiyadakı icraatın xüsusi şərtlərinə əməl edilməli, bu zaman, qanunvericiliyə uyğun olaraq milli

səviyyədə həyata keçirilən məhkəmə icraatının bütünlüyü ilə kassasiya məhkəməsinin ümumi məhkəmə sistemindəki rolu nəzərə alınmalıdır. *(Osu İtaliyaya qarşı iş, İş N: 36534/97, 11/07/2002, § 32-33).* Hüquqi məsələlər üzrə kassasiya şikayətinin qəbuledilənlik şərtləri apellyasiya şikayətinin qəbuledilənlik şərtlərindən daha da sərt ola bilər. *(Zubac Xorvatiyaya qarşı (Böyük Palata), §82-83).*

***Ali Məhkəmənin ikili (xüsusi və ictimai) funksiyası***

35. Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmə praktikasına aid məsələlər üzrə izahatlar verir.

36. “Məhkəmələr və hakimlər haqqında” Qanunun 77-ci maddəsinə görə Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən kommersiya və inzibati mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır. Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

37. Həmin Qanunun 79-1-ci maddəsində isə Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına dair məsələlər tənzimlənmişdir. Sözügedən maddədə təsbit edilmişdir ki, vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır. Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır.

38. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməməsi hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxarır. Belə ki, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün həm hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə olunacağına, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir *(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli; “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 3 iyun 2013-cü il tarixli; “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh olunmasına dair” 28 yanvar 2014-cü il tarixli qərarları)*.

39. Bununla yanaşı, nəinki müxtəlif məhkəmə instansiyaları arasında, hətta eyni məhkəmə instansiyası daxilində məhkəmə tərkibləri arasında məhkəmə təcrübəsində fikir ayrılıqlarının olması ehtimalı istənilən məhkəmə sisteminə xas haldır. Oxşar faktiki hallardan doğan eyni hüquqi məsələ ilə bağlı əsaslandırılmamış ziddiyyətli məhkəmə qərarlarının davamlı mövcudluğu Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsində və “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın 6-cı maddəsində təsbit edilmiş ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına gətirib çıxarmaqla yanaşı, həm də qanunun aliliyinə əsaslanan dövlətin vacib komponentlərindən biri olan məhkəmə sisteminə inamın azalmasına səbəb ola biləcək hüquqi qeyri-müəyyənlik vəziyyəti yarada bilər.

40. Vahid məhkəmə təcrübəsinin mövcudluğu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyinin və ədalət mühakiməsi həyata keçirilərkən maddi və

prosessual hüquq normalarının eyni cür tətbiq edilməsinin təminatı kimi çıxış edir. Qanunun eyni cür tətbiqi hüququn ümumiliyini, qanun qarşısında bərabərliyi və hüquqi müəyyənliyi təmin edir. Hüquqi dövlətdə bu prinsiplərin hakim olması şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə olan inamını artırır, onlara öz hərəkətlərinin hüquqi nəticələrini öncədən görmə imkanı verir. Bundan başqa, vahid məhkəmə təcrübəsinin mövcudluğu oxşar məhkəmə işlərinin həllinin proqnozlaşdırıla bilən olmasını təmin etməklə mübahisələrin məhkəmədən kənar həllinə kömək edir, bununla həm də, son nəticədə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verilmiş olur.

41. Beləliklə, Ali Məhkəmənin funksiyalarından biri olan xüsusi funksiya - ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatında olan işlərə qanunla müəyyən edilmiş xüsusi prosessual qaydada - kassasiya qaydasında baxmaqdan ibarətdir. Bu funksiyanı yerinə yetirərkən Ali Məhkəmə, məhkəmə sistemi daxilində növbəti instansiya qismində çıxış etməklə ədalət mühakiməsinin həyata keçirilməsindən birbaşa iştirak etmiş olur. Bu halda, konkret mübahisənin həlli ilə bağlı apellyasiya instansiyası məhkəməsi tərəfindən məhkəmə aktları çıxarılarkən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilib-edilmədiyi yoxlanılır. Lakin konkret iş üzrə ədalətli və qanuni qərarın qəbul edilməsi kassasiya icraatının yeganə məqsədi deyil. Ali Məhkəmənin konstitusion statusuna uyğun olaraq qarşısında duran ən mühüm vəzifələrdən biri onun malik olduğu ictimai funksiyadan irəli gəlir.

42. Ali Məhkəmənin ictimai funksiyası isə vahid məhkəmə təcrübəsinin formalaşdırmaq və hüququn inkişafını təmin etməkdən ibarətdir. Bu zaman isə o, özünün konstitusion statusuna uyğun olaraq konkret işin hallarından kənara çıxan qaydada məhkəmələrin ümumən hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək, eləcə də hüququn inkişafına nail olmaq məqsədlərinə yönəlmiş fəaliyyəti həyata keçirir.

43. Kassasiya məhkəməsi sözügedən hər iki funksiyanı praktikada bir-birindən ayrılmaz və sıx əlaqəli şəkildə həyata keçirir. Belə ki, bəzən baxılan konkret iş üzrə çıxarılmış qərar nəinki həmin mübahisəni həll edir, həm də qərarın təsiri konkret mübahisənin həddlərindən kənara çıxmaqla oxşar məsələlərə münasibətdə tətbiq edilməli olan hüquqi mövqeləri də özündə ehtiva etməklə, sonrakı məhkəmə təcrübəsinin formalaşmasına və ya dəyişdirilməsinə gətirib çıxara bilir.

44. Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi yaratmaq funksiyası dar mənada sadəcə bu təcrübənin özünü yaratmaq kimi təfsir oluna bilməz. Bu funksiya kassasiya məhkəməsindən həm də onu tələb edir ki, yaradılmış təcrübənin sabitliyi və davamlılığı təmin edilməli, məhkəmə fəaliyyətində həmin təcrübəyə ardıcıl və uyğun davranılmasına nail olunmalı, eləcə də hüququn inkişafını təmin etmək və cəmiyyətin dəyişən ehtiyaclarına adekvat və çevik reaksiya verə bilmək üçün təcrübənin dəyişdirilməsi imkanları həmişə mövcud olmalıdır.

*45.* Məhkəmə təcrübəsində qeyri-müəyyənlikləri və ziddiyyətləri həll etmək ilk növbədə Ali Məhkəmənin vəzifəsidir. Ali Məhkəmə uyğunsuzluqları aradan qaldırmaq üçün məhkəmə təcrübəsinin vahidliyini təmin etməli və bununla da, məhkəmə sisteminə ictimai etimadı qoruyub saxlamalıdır *(Albu və digərləri Rumıniyaya qarşı, 34796/09, 12 may 2012).*

46. Məhkəmə təcrübəsinin inkişafı özlüyündə ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə zidd deyildir. Dinamik və təkmilləşdirici yanaşmanın olmaması istənilən islahatların və irəliləyişlərin qarşısını alır *(İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Nejdet Şahin və Perihan Şahin Türkiyəyə qarşı işi üzrə qərarı [BP], § 58; Atanasovski Keçmiş Yuqoslaviya Respublikası Makedoniyaya qarşı işi üzrə qərarı, § 38)*. Presedent hüququnda fikir ayrılılıqları ilə bağlı məhkəmələrin təcrübəsində sistemliliyi və presedent hüququnun vahidliyini təmin etmək üçün mexanizmlərin yaradılması vacibdir *(Frimu və digərləri Rumıniyaya qarşı (qərardad), §§ 43-44).*

47. Bununla bağlı olaraq həmçinin qeyd olunmalıdır ki, vahid məhkəmə təcrübəsinin formalaşdırılması hüququn lazımi formada inkişafının əsassız məhdudlaşdırılmasına, hakimin əsaslandırılmış fərqli qərar qəbul etmək imkanının aradan qaldırılmasına, eləcə də məhkəmənin müstəqilliyi prinsipinin pozulmasına yönəlməməlidir *("Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması" Qaydasının 1.7-ci bəndi).*

***əsaslandırılmış kassasiya şikayəti***

48. İPM-in 91-ci maddəsinə əsasən Ali Məhkəmə mübahisə ilə bağlı işə şikayət həddində baxır və yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

49. Kassasiya şikayətinin verilməsinə dair tələbləri nəzərdə tutan İPM-in 94.2-94.4-cü maddələrində isə təsbit edilmişdir ki, şikayətdə mübahisə edilən məhkəmə qərarı və ya qərardadı barədə məlumatlar göstərilməli və şikayət əsaslandırılmalıdır. Bu Məcəllənin 94.1-ci maddəsində nəzərdə tutulmuş məhkəmə qərarından verilmiş şikayət əsaslandırılmadığı hallarda, həmin şikayətin verildiyi gündən 1 ay ərzində həmin şikayətin əsaslandırma hissəsi birbaşa Ali Məhkəməyə təqdim edilməlidir. Şikayətin əsaslandırma hissəsində şikayəti verən şəxsin tələbi göstərilməlidir.

50. Göründüyü kimi İPM-də yalnız kassasiya şikayətinin əsaslandırılmış olmasına dair tələb nəzərdə tutulmuş, lakin "əsaslandırılmış şikayətin" nələri ehtiva etməli olduğu və ya özündə hansı məzmunda əsaslandırmanı ehtiva edən şikayətin "əsaslandırılmamış şikayət" kimi qəbul ediləcəyinə dair konkret tənzimləmələr gətirilməmişdir. Belə olan halda, şikayət hüququnun özünün təbiəti və şikayətin məhz hansı instansiya məhkəməsinə verildiyi nəzərə alınmaqla "əsaslandırılmış şikayətin" hansı meyarlar əsasında müəyyənləşdirilməli olduğu kassasiya məhkəməsinin özü tərəfindən həll edilməlidir.

51. İlk növbədə aydındır ki, qanunvericilik şikayətə münasibətdə riayət edilməli olan forma və məzmunla bağlı tələblər nəzərdə tutmuşdur. Şikayətin əsaslandırılmış olması, məzmunla bağlı tələblərin tərkibinə daxildir. Qanunvericinin iradəsi isə ona yönəlmişdir ki, istənilən şikayət deyil, yalnız əsaslandırılmış şikayət üzrə kassasiya mümkün hesab edilməlidir. Başqa sözlə, şikayət qəbul edilmiş məhkəmə aktından ümumi formada narazılığı ifadə etməməli, apellyasiya məhkəməsinin gəldiyi nəticənin qanunsuzluğu və əsassızlığı ilə bağlı konkret dəlillərə istinadı özünə əks etdirməlidir.

52. Digər tərəfdən isə onu da xüsusilə nəzərə almaq lazımdır ki, konkret halda, şikayət məhz kassasiya məhkəməsinə ünvanlanır. Belə olan halda isə əsaslandırma ilə bağlı tələbə münasibətdə ümumilikdə məhkəmə sistemi daxilində kassasiya məhkəməsinin rolu, kassasiya məhkəməsinin səlahiyyətləri və bu instansiyada həyata keçirilən icraatın özəl xüsusiyyətləri nəzərə alınmaqla qiymət verilməlidir. Bu mənada, kassasiya şikayətinin mümkünlüyünə dair tələblərin daha sərt ola biləcəyinin yolverilənliyi nəzərə alınmalıdır.

53. Məlumdur ki, məhkəmə sistemi daxilində ədalət mühakiməsinin həyata keçirilməsi prosesində Ali Məhkəmə hüquq məhkəməsi roluna malikdir. O, mübahisənin müəyyən olunmuş hallarına apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Ona görə də, kassasiya şikayətində dəlillərin olması vacib şərt kimi çıxış edir, başqa sözlə, şikayət məhz hüququn məhkəmə tərəfindən düzgün tətbiq edilmədiyinin əsaslandırılmasına dair dəlilləri özündə əks etdirməlidir. Hüququn düzgün tətbiq edilmədiyinə dair dəlillər isə ilk növbədə ümumi hüquqi prinsiplərin, eləcə də maddi və prosessual hüquq normalarının mübahisəyə düzgün tətbiq edilmədiyindən ibarət ola bilər.

54. Mübahisənin həllinə tətbiq edilməli olan qanunvericilik normalarının məhkəmə tərəfindən tətbiq edilməməsi və ya natamam tətbiq edilməsi, tətbiq edilməli olmayan

normaların tətbiq edilməsi, yaxud da normaların düzgün təfsir edilməməsi hüququn düzgün tətbiq olunmadığı nəticəsini yaradır. Mübahisənin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halların müəyyənləşdirilmədiyinə, eləcə də işin məhkəmə tərəfindən müəyyən edilmiş hallarının sübut olunmadığına dair dəlillər də müvafiq maddi və prosessual hüquq normalarına istinadla və onların düzgün tətbiq edilmədiyi ilə əlaqələndirilməklə təqdim olunmalıdır.

55. Beləliklə, kassasiya şikayətində məhz yol verildiyi güman olunan hüququn düzgün tətbiq edilmədiyinə dair dəlillər əks etdirilməlidir. Bu qaydada əsaslandırma elə bir şikayətin verilməsini nəzərdə tutur ki, şikayətdə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olduğu işin halları ilə əlaqəli şəkildə ətraflı təsvir edilməli, normaların yalnız sadalanması (qeyd olunması) ilə kifayətlənilməməli, onların hansı mənada tətbiq edilməli olduğuna dair münasibət əks olunmalı, apellyasiya instansiya məhkəməsinin gəldiyi nəticənin konkret hansı normalara və nəyə görə zidd olduğu, beləliklə də, hüququn düzgün tətbiq edilmədiyi lazımi qaydada əsaslandırılmalıdır. Maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilmədiyinə dair dəlillər həm də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında (qərardadlarında) əks olunmuş hüquqi mövqelərə istinadla əsaslandırıla bilər.

56. Kollegiya həmçinin hesab edir ki, kassasiya şikayətində həm də apellyasiya instansiya məhkəməsinin mübahisələndirilən aktının baxılan məsələ üzrə mövcud məhkəmə təcrübəsinə uyğunluğu ilə bağlı məsələyə münasibət də əks olunmalı, şikayətin "əsaslandırılmış" olub-olmadığının qiymətləndirilməsində bu məqam da nəzərə alınmalıdır. Mövcud məhkəmə təcrübəsi Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə qərarları (izahları), Ali Məhkəmənin kollegiyalarının İPM-in 98-1-ci, MPM-in 418-1-ci və CPM-in 419-1-ci maddələrində müəyyən edilmiş qaydada qəbul edilmiş qərardadları (qərarları), habelə baxılan konkret işlər üzrə çıxarılmış məhkəmə tərkiblərinin və Ali Məhkəmənin Plenumunun qərarları (qərardadları) ilə formalaşdırılır.

57. Mövcud məhkəmə təcrübəsinə uyğunluqla bağlı məsələyə dair şikayətdə, apellyasiya instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticənin və bu zaman rəhbər tutduğu hüquqi mövqenin formalaşmış vahid məhkəmə təcrübəsinə zidd olması və ya bununla bağlı vahid məhkəmə təcrübəsinin ziddiyyətli olması, yaxud ümumiyyətlə olmaması, yaxud da vahid məhkəmə təcrübəsinin dəyişdirilməsinə zərurət olması əsaslandırılmalıdır. Əks hal, yuxarıda ətraflı şəkildə qeyd edilmiş vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədlərinə və ondan gözlənilən nəticələrin əldə edilməsinə maneə təşkil edər, eləcə də məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini təmin etməyə imkan verən hüquqi mexanizmlərin əhəmiyyətini heçə endirərdi.

58. Bu mənada, baxılan iş üzrə vahid məhkəmə təcrübəsi mövcud, aydın və birmənalı olduqda, eləcə də həmin təcrübə kifayət qədər müddət ərzində davamlı tətbiq edilməklə sabit təcrübəyə çevrildikdə, həmçinin təcrübə tərəflər üçün əlçatan və bəlli olduqda, əgər kassasiya şikayəti həmin təcrübəni nəzərə almadan və ya təcrübəni dəyişdirməyə yönəlmiş yeni dəlillərə istinad olunmadan verilmişsə, şikayət əsaslandırılmamış hesab edilə bilər.

59. Bu zaman, şikayətin əvvəllər artıq Ali Məhkəmə tərəfindən baxılmaqla həll edilmiş mahiyyətcə eyni faktiki və hüquqi hallara söykənən işlərlə oxşar iş üzrə verildiyinə də diqqət edilməlidir. İşlərin oxşarlığının qiymətləndirilməsi adətən icraatda tərəflərin müqayisəsini, eləcə də istinad olunan müvafiq faktiki və hüquqi halların mahiyyətcə eyniliyini əhatə edir. Şikayətçidən gözlənilən odur ki, o, həqiqətən də mahiyyətcə yeni şikayət irəli sürməli, yəni, daha əvvəllər məhkəmə tərəfindən baxılmamış və qiymətləndirilməmiş yeni məlumatlara və dəlillərə istinad etməlidir.

60. Kollegiya həmçinin hesab edir ki, təcrübədə rast gəlinən şikayət hüququndan sui-istifadə hallarına da "əsaslandırılmamış şikayət" çərçivəsində qiymət verilməklə onların mümkünlüyü həll edilə bilər. Belə ki, ümumi hüquq nəzəriyyəsində şikayət hüququndan sui-

istifadə hüququn ənənəvi olaraq nəzərdə tutulduğundan fərqli məqsədlə zərərli istifadəsi kimi qəbul edilir. Bir qayda olaraq, usandırıcı, açıq-aydın əsaslandırılmamış və şikayət hüququnun məqsədlərinə aşkar zidd olan, daha əvvəl verilməklə mümkün sayılmamış şikayətlərə bənzər şikayətlərin təkrar-təkrar məhkəməyə təqdim edilməsi, xüsusən də məhkəmənin real funksiyaları ilə üst-üstə düşməyən, gərəksiz iş yükü yaradan, məhkəmənin ədalət mühakiməsinin maraqları naminə fəaliyyət göstərməsinə və icraatındakı işlərə lazımi qaydada baxmağa əngəl törədən və digər bənzəri hallar şikayət hüququndan sui-istifadə kimi qəbul edilə bilər.

61. Qeyd edilənləri nəzərə almaqla kollegiya hesab edir ki, iş üzrə verilmiş kassasiya şikayətində hüququn məhkəmə tərəfindən düzgün tətbiq edilmədiyinin əsaslandırılmasına dair dəlillər əks olunmadıqda, eləcə də kassasiya şikayəti Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə qərarları (izahları), Ali Məhkəmənin kollegiyalarının İPM-in 98-1-ci, MPM-in 418-1-ci və CPM-in 419-1-ci maddələrində müəyyən edilmiş qaydada qəbul edilmiş qərardadları (qərarları), habelə baxılan konkret işlər üzrə çıxarılmış məhkəmə tərkiblərinin və Ali Məhkəmənin Plenumunun qərarları (qərardadları) ilə yaradılan mövcud məhkəmə təcrübəsində təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin dəyişdirilməsinə nail olmaq məqsədilə yeni dəlillərə istinadla əsaslandırılmadıqda, eləcə də şikayət hüququndan sui-istifadə edildikdə, şikayət əsaslandırılmamış hesab edilə bilər.

***əsaslandırılmamış kassasiya şikayətinin mümkün sayılmaması***

62. Azərbaycan Respublikasının Konstitusiyasının 26 və 60-cı maddələrində, eləcə də İPM-in 90-cı maddəsində apellyasiya instansiyası məhkəməsinin aktlarından Ali Məhkəməyə kassasiya şikayəti vermək hüququ təsbit edilmişdir. Beləliklə, məhkəmə aktlarından kassasiya instansiyası məhkəməsinə şikayət vermək hüququ məhkəmə müdafiəsi hüququnun təminatlarından biri kimi qanunvericilikdə təminat altına alınmışdır.

63. Digər tərəfdən, artıq yuxarıda qeyd edildiyi kimi məhkəmə aktlarından kassasiya şikayəti vermək hüququ mütləq xarakter daşımır və mahiyyətinə görə dövlətdən tənzimləmə tələb edən bu hüquq, müəyyən məhdudiyyətlərə məruz qala bilər. Lakin belə məhdudiyyətlər konstitusion hüquq olan məhkəmə müdafiə hüququna müdaxilə təşkil etdiyindən yalnız müəyyən təminatlara riayət edilməklə həyata keçirildiyi halda, yolverilən hesab edilə bilər. Həmin təminatlar isə onu nəzərdə tutur ki, müdaxilə qanunda nəzərdə tutulmalı, legitim məqsədlərə nail olmaq üçün tətbiq edilməli, tətbiq edilən vasitələrlə güdülən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi mövcud olmalı, həmçinin məhdudiyyətlər şəxsin məhkəməyə müraciət hüququnun mahiyyətinə xələl gətirməməlidir.

64. Kassasiya şikayətinin əsaslandırılmış formada verilməli olduğuna dair tələb İPM-in 94.2 və 94.3-cü maddələrində təsbit edilmiş, eləcə də 96.2-ci maddədə Ali Məhkəmənin kassasiyanın mümkünlüyü əsaslarını yoxlamalı olduğuna dair imperativ norma nəzərdə tutulmuşdur. Beləliklə, əsaslandırılmamış kassasiya şikayətinin mümkün sayılmaması tələbi konkret qanun müddəalarından irəli gəlir. Bu halda, məhkəməyə müraciət hüququna müdaxilənin qanunda nəzərdə tutulmalı olduğuna dair şərt ödənilmiş olur.

65. Növbəti qiymətləndirilməli olan məsələ sözügedən müdaxilənin legitim məqsədlər naminə edilib-edilmədiyi ilə bağlıdır. Bunun üçün hər şeydən əvvəl milli səviyyədə həyata keçirilən məhkəmə icraatının bütünlüyü ilə kassasiya məhkəməsinin ümumilikdə məhkəmə sistemindəki xüsusi rolu nəzərə alınmalıdır. Bu mənada, qeyd edilməlidir ki, kassasiya məhkəməsi məhkəmə sistemi daxilində “hüquq məhkəməsi” roluna malikdir. Belə olan halda, onun sözügedən rolu baxımından kassasiya şikayətinin mümkünlüyünə dair tələblərin də daha sərt olacağı gözlənilən və yolveriləndir. Müvafiq olaraq kassasiya şikayətinin mümkünlüyü ilə bağlı prosessual

tələblərin müəyyən edilməsində mülahizə sərbəstliyi daha geniş və sərt ola bilər. Bu, kassasiya icraatının xüsusi mahiyyətindən və onun həll edə biləcəyi məsələlərin dairəsindən irəli gəlir. Çünki həmin məhkəmənin fəaliyyətinin fundamental prinsipinə görə, “kassasiya məhkəməsi işi deyil, qərarı mühakimə edir”. Ali Məhkəmənin təyinatı məhkəmə aktını mühakimə etməklə yanaşı, əhəmiyyətli hüquqi məsələləri araşdırmaq, ölkədə vahid məhkəmə təcrübəsini formalaşdırmaq, hüququn inkişafına töhfə verməkdir. Bu baxımdan, vacib hüquqi əhəmiyyət kəsb etməyən, təkrarlanan və Ali Məhkəmənin formalaşdırdığı vahid məhkəmə təcrübəsinə uyğun çıxarılmış məhkəmə qərarlarından verilən şikayətlərə baxılması Ali Məhkəmənin qeyd edilən təyinatına maneə törətməklə, ədalət mühakiməsinin səmərəliliyinə ciddi xələl gətirə bilər. Məhz bu cür halların qarşısını almaq üçün müasir hüquq elmində, habelə beynəlxalq məhkəmələrin və xarici dövlətlərin məhkəmə təcrübəsində kassasiya icraatı çərçivəsində baxılmalı olan şikayətlərə dair müvafiq filtrlər müəyyən edilmişdir.

66. “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 24 iyul 2020-ci il tarixli qərarında da sözügedən hüquqi mövqe müdafiə olunmaqla göstərilmişdir ki, qanunverici kassasiya instansiyası məhkəməsinin statusundan və ona verilmiş səlahiyyətlərin xarakterindən çıxış edərək kassasiya şikayətlərinin tərtib olunması və verilməsinə münasibətdə daha sərt qaydalar müəyyən etmiş və bu məhkəmənin baxdığı işlərin dairəsini, işə baxılması hədlərini və yeni şəxslərin işə cəlb edilməsi imkanını məhdudlaşdırmışdır.

67. Kassasiya şikayətinin mümkünlüyü ilə bağlı daha sərt prosessual qaydaların müəyyən edilməsində məqsəd hüquqi müəyyənlik prinsipini, eləcə də ədalət mühakiməsinin cəmiyyətin ehtiyaclarına uyğun və səmərəli həyata keçirilməsini təmin etməkdir. Qeyd edilənlər hüquqi dövlətin əsas təminatları kimi çıxış edir. Sözügedən məqsədlərə nail olmaq üçün Ali Məhkəmənin məhz hüquq məhkəməsi kimi fəaliyyət göstərməsi təmin olunmalıdır. Ona görə də, kassasiya şikayətinin Ali Məhkəmədəki icraatın özəl xüsusiyyətləri nəzərə alınmaqla xüsusi əsaslandırma tələblərinə uyğun verilməsi tələbi, məhkəmənin məhz hüquq məhkəməsi kimi fəaliyyətinin təmin edilməsinə yönəlmiş legitim məqsədə xidmət edir. Həmin legitim məqsəd yalnız lazımi əsaslandırma tələblərinə riayət edilməklə tərtib edilmiş şikayətlərə baxılmasını yolverilən edir. Nəticədə, bu qaydada filtrin tətbiqi ilə Ali Məhkəmə hüquqi məsələlərin həllinə yanaşmaların sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının məhkəmələr tərəfindən eyni cür tətbiq edilməsini təmin etməklə bağlı özünün həqiqi funksiyasını həyata keçirə biləcəyi işlərə daha çox vaxt və enerji ayırmış olur, bununla da, hüququn inkişafı və vahid məhkəmə təcrübəsinin formalaşdırılması və ya dəyişdirilməsi baxımından heç bir əhəmiyyəti olmayan şikayətlərə mahiyyəti üzrə baxılmasına lüzum qalmır, kassasiya məhkəməsi əhəmiyyətsiz hüquqi mübahisələrdən azad edilmiş olur.

68. Ali Məhkəmənin əsas funksiyası hüququn eyni cür tətbiq edilməsini və inkişafını təmin etməyə imkan verən vahid məhkəmə təcrübəsini yaratmaq, onun davamlılığına nail olmaq və həmin təcrübənin cəmiyyətin dəyişən ehtiyaclarına uyğun dəyişdirilməsini təmin etməkdən ibarətdir. Bu əsas məqsədə kassasiya məhkəməsi tərəfindən bütün şikayətlərə baxmadan da nail olmaq mümkündür. Əksinə, bir sıra hallarda kassasiya məhkəməsinə məhdudiyyətsiz müraciət imkanının mövcudluğu məhkəmənin özünün qaçılmaz olaraq vahidliyi təmin etmək əvəzinə, qeyri-müəyyənlik və ziddiyyətli presedent hüququ mənbəyinə çevrilməsinə gətirib çıxara bilir. Halbuki, məhz Ali Məhkəmə hüququn tətbiqindəki ziddiyyətləri və uyğunsuzluqları aradan qaldırmaq, bununla da, məhkəmə sisteminə olan ictimai etimadı qorumaq üçün hüququn vahidliyini təmin etməlidir. Buna görə də, presedent hüququnun vahidliyi ilə bağlı mülahizələrlə kassasiya məhkəməsinə müraciət mexanizmləri arasında təbii əlaqə mövcuddur. Odur ki, əsaslandırılmamış şikayətlərə kassasiya məhkəməsində mahiyyəti

üzrə baxılmaması Ali Məhkəmənin əsas funksiyası olan hüququn eyni cür tətbiq edilməsini və inkişafını təmin etməyə dair legitim məqsədə xidmət edir.

69. Bununla bağlı olaraq kollegiya Avropa Hakimlərinin Məşvərət Şurasının "Qanunun vahid formada tətbiqində məhkəmələrin rolu"na dair 2017-ci il 10 noyabr tarixli 20 saylı Rəyində əks olunmuş aşağıdakı mülahizə və tövsiyələrə diqqəti yönəltməyi zəruri hesab edir:

*"...Şura qeyd edir ki, hüquqi ənənələr və məhkəmə orqanlarının təşkili ilə bağlı fərqliliklərə görə, bütün Avropada ali məhkəmələrə müraciət forması fərqli şəkildə təşkil olunmuşdur. Eyni yanaşma, ali məhkəmələrin əsasən xüsusi funksiyaya, yoxsa ictimai funksiyaya xidmət etməsinə dair anlayışlara da aiddir. Birincisi, hər bir fərdi işin bu iş üzrə tərəflərinin xeyrinə ədalətli və düzgün həllinə çalışmaqdan ibarətdir. Sonuncu presedent hüququn vahidliyini və inkişafını təmin etmək üçün ictimai maraqların qorunması və təşviqi ilə əlaqədardır. Bu Rəyin mahiyyətinə aid olmadığı üçün, Şura bu rəydə ali məhkəmələrin təşkil olunma forması və onlara müraciət formasını müəyyən etməyəcəkdir. Buna baxmayaraq, ali məhkəmənin vahid presedent hüququnu təmin etmək məsuliyyəti, çox güman ki, işlərin ali məhkəməyə qəbulu üçün adekvat seçim meyarlarının müəyyən edilməsini tələb edir. Qanunvericiliklərində şikayət hüququna məhdudiyyət tətbiq edilməyən ölkələr qəbuledilənlik tələblərinin və ya digər müvafiq filtrasiya mexanizminin tətbiqini nəzərdən keçirə bilər. Qəbuledilənlik meyarları ali məhkəməyə qanunun vahid təfsirinin təşviqi rolunu yerinə yetirməkdə kömək etməlidir.*

*Şikayət vermək üçün belə meyarların tətbiqi o deməkdir ki, ali məhkəmənin məsələyə dair qərarının fərdi işin hüdudlarından kənar əhəmiyyəti var. Ümumiyyətlə, gələcək işlərdə buna əməl ediləcəyi gözlənilir və buna görə də, aşağı məhkəmələr və bütün gələcək iddiaçılar və onların vəkilləri üçün dəyərli təlimat rolunu oynayır. Yalnız bu cür seçim meyarları presedent əhəmiyyətli işlərə ali məhkəmə tərəfindən baxılmasını təmin edir. Eyni zamanda, bütün bu cür işlərin ali məhkəməyə çatdırılmasını təmin edə biləcək yeganə meyarlar bunlardır. Buna görə də, ali məhkəmə hüququn bütün sahələrində gələcək işlərdə təsirli olmalı olan qaydaların müəyyən edilməsi funksiyasını səmərəli şəkildə yerinə yetirə bilər.*

*Şura hesab edir ki, ali məhkəmələrin presedent hüququnun vahidliyini təmin etmək və saxlamaq məsuliyyəti, ali məhkəmənin işlərə mümkün qədər tez-tez müdaxilə etməsi tələbi kimi başa düşülməməlidir. Belə bir yanaşma, ali məhkəmənin işlərə baxmasında ləngimələrə səbəb olmaqla və onun qərarının keyfiyyətini aşağı salmaqla yanaşı, istər-istəməz ali məhkəmənin özünün presedent hüququ daxilində ziddiyyətlərə səbəb olar, nəticədə, ali məhkəmənin qərar verdiyi işlərin sayı həddindən artıq çox olarsa, onun presedent hüququnun çox vaxt diqqətdən kənarda qalması qaçılmazdır. Buna görə də, aşağı instansiya məhkəmələrinin ziddiyyətli qərarlarının mövcudluğu, sadəcə olaraq, ali məhkəməyə məhdudiyyətsiz müraciətin təmin edilməsi ilə aradan qaldırıla bilməz.*

*Eyni məhkəmə daxilində vahidliyi təmin edən vasitələrin mövcudluğu ali məhkəmələr üçün xüsusilə aktualdır. Ali məhkəmənin vahidliyi təmin etmək əvəzinə, qeyri-müəyyənlik və ziddiyyətli presedent hüququ mənbəyinə çevrilməsi xüsusilə problemlidir. Beləliklə, ali məhkəmə daxilində bu uyğunsuzluqları aradan qaldıra biləcək mexanizmlərin mövcud olması böyük əhəmiyyət kəsb edir".*

70. Əsaslandırılmamış kassasiya şikayətlərinin mümkün sayılmaması məsələsinə mütənasiblik prinsipinin tələbləri baxımından da qiymət verilməlidir. Mütənasiblik nəzərdə tutulan müdaxilənin əldə edilmək istənilən məqsəd baxımından əlverişli və zəruri olmasını, fərdin hüququna edilən müdaxilə ilə güdülən məqsəd arasında ağlabatan tarazılığa riayət edilməsini tələb edir. Əgər nəzərdə tutulan tədbir fərdi qeyri-mütənasib və həddən artıq yükə məruz qoyursa, müdaxilə mütənasiblik tələblərinə cavab vermir. Müdaxilənin mütənasibliyi qiymətləndirilərkən mövcud qanunvericilik normaları ilə yanaşı, konkret işin halları və fərdin davranışları da nəzərə alınmalıdır.

71. Mütənasibliyin qiymətləndirilməsi ilə bağlı ilk növbədə qeyd olunmalıdır ki, müvafiq prosessual tələblər aydın və öngörüləbilən olmalıdır. Bu mənada, kassasiya şikayətinin əsaslandırılmalı olduğuna dair İPM-də aydın və birmənalı norma vardır, eləcə də həmin norma icraat iştirakçıları üçün bəlli olmaqla öngörüləndir.

72. Kassasiya şikayətinin əsaslandırılması zamanı xüsusi tələblərə riayət edilməli olduğu həmçinin Ali Məhkəmənin iş yükünün optimallaşdırılmasına dair ehtiyacdan irəli gəlir. Ali Məhkəmədən əsas gözlənilən hüququn eyni cür tətbiq edilməsini və inkişafını təmin etməyə dair ictimai funksiyanın layiqincə yerinə yetirilməsidir. Bu isə aydındır ki, həm də iş yükünün optimallaşdırılmasına, təkrarlanan işlərə baxılmasının qarşısının alınması dair tədbirlərin görülməsini tələb edir. Belə tədbirlərin görülməməsi məhkəmə proseslərinin müddətlərinin uzanmasına, şəxslərin hüquqlarının bərpasının yubanmasına, məhkəmələrin əsassız olaraq eyni kateqoriya işlərlə yüklənməsinə gətirib çıxarır, ümumilikdə isə məhkəmə sisteminin səmərəli fəaliyyətinə maneə təşkil edir. Lazımi qaydada əsaslandırılmamış kassasiya şikayətlərinin mümkün sayılmamasına dair prosessual tələblərin müəyyənləşdirilməsi optimallaşdırmanın alətlərindən biri kimi çıxış etməklə ümumi maraqlara xidmət edir. Bununla, kassasiya məhkəməsinin həqiqi funksiyalarını təmin etməyə yönəlmiş həm keyfiyyətli, həm də ağlabatan müddətlərdə fəaliyyət göstərməsinə nail olunur.

73. Digər tərəfdən, nəzərə alınmalıdır ki, kassasiya şikayəti verən şəxslərdən əsaslı olaraq gözlənti ondan ibarətdir ki, Ali Məhkəməyə şikayət vermək hüququ həyata keçirilərkən bu hüquqdan səmərəli şəkildə istifadə olunmalı, müvafiq olaraq şikayətin tərtibi zamanı kassasiya məhkəməsinin funksiyası və səlahiyyətləri nəzərə alınmalıdır. Bu, ədalət mühakiməsinin maraqları baxımından olduqca zəruridir. Qeyd edilənlər nəzərə alındığında, kassasiya şikayətinin əsaslandırılmasına dair xüsusi yanaşmanın tətbiqi şikayətçiləri qeyri-mütənasib və həddən artıq yükə məruz qoymamaqla, ümumilikdə cəmiyyətin maraqları ilə fərdi hüquqlara müdaxilə arasındakı ədalətli balans təmin etmiş olur.

74. Kollegiya qeyd edir ki, kassasiya şikayəti vermək hüququnun həyata keçirilməsi qanunvericilikdə müəyyən olunmuş prosessual tələblərlə şərtləndirilə bilər, lakin həmin prosessual normalar qanunvericinin müəyyənləşdirdiyi məqsədlər baxımından tətbiq olunmalıdır. Bu zaman həmin normaları elə tətbiq edilməlidir ki, bir tərəfdən məhkəməyə müraciət hüququnun məhdudlaşdıran hədsiz formalizmdən, digər tərəfdən isə qanunla nəzərdə tutulan prosessual müddəaları heçə endirən hədsiz yumşaqlıqdan uzaq olunsun. Bu mənada, aydındır ki, kassasiya şikayətin mümkünlüyünə dair prosessual normalar həddən artıq formalizmə aparıb çıxaracaq, bununla da, şikayət hüququnun özünün mahiyyətini zədələyəcək qaydada tətbiq edilə bilməz. Sözügedən məsələyə münasibətdə kollegiya hesab edir ki, kassasiya şikayətinin xüsusi tələblər nəzərə alınmaqla əsaslandırılmalı olduğuna dair yanaşmanın mənimsənilməsi qeyd edilən formalizmə səbəb olmamaqla yanaşı, hüququn özünün mahiyyətini zədələyəcək xarakter də qazanmır.

75. Nəhayət, kollegiya hesab edir ki, kassasiya şikayətinin mümkünlüyü məsələsinə münasibətdə yeni hüquqi yanaşmaların müəyyənləşdirildiyi nəzərə alınmaqla ictimaiyyətinin məlumatlandırılmasını, eləcə də davam edən işlər üzrə məhkəmə prosesi iştirakçılarının hüquqlarının qorunmasını təmin etmək üçün müəyyən keçid dövrü müəyyənləşdirilməli, müvafiq olaraq bu qərardad 2024-cü il 01 yanvar tarixdən sonra verilmiş kassasiya şikayətlərinə münasibətdə tətbiq olunmalıdır.

76. Yuxarıda göstərilənlərə əsasən və İPM-in 98-1-ci maddəsini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyası

**Q Ə R A R A A L D I:**

1. Azərbaycan Respublikasının Konstitusiyasının 131-ci maddəsində və İnzibati Prosessual Məcəllənin 91 və 94.2-ci maddələrində müəyyən edilmiş Ali Məhkəmənin konstitusion statusuna və kassasiya icraatının xüsusi təyinatına uyğun olaraq kassasiya şikayəti hüququn düzgün tətbiq edilmədiyinə və vahid məhkəmə təcrübəsinə dair dəlillər əks olunmaqla əsaslandırılmalıdır.

2. Kassasiya şikayətində hüququn düzgün tətbiq edilmədiyinə dair dəlillər göstərilərkən məhkəmə tərəfindən mübahisəyə tətbiq edilməli olan hüquq normalarının tətbiq edilmədiyinə və ya natamam tətbiq edildiyinə, tətbiq edilməli olmayan normaların tətbiq edildiyinə, yaxud da normaların düzgün təfsir edilmədiyinə dair münasibət işin halları ilə əlaqəli şəkildə əsaslandırılmış qaydada təqdim olunmalıdır.

3. Kassasiya şikayətində vahid məhkəmə təcrübəsinə dair dəlillər göstərilərkən məhkəmənin iş üzrə gəldiyi nəticənin mövcud məhkəmə təcrübəsinə zidd olduğu və ya məhkəmə təcrübəsinin özünün ziddiyyətli olduğu, yaxud təcrübənin ümumiyyətlə olmadığı, yaxud da mövcud təcrübənin dəyişdirilməsinə zərurət yarandığı əsaslandırılmalıdır.

4. Baxılan mübahisə üzrə vahid məhkəmə təcrübəsi mövcud və aydın olduqda, eləcə də həmin təcrübə kifayət qədər müddət ərzində davamlı tətbiq edilməklə sabit təcrübəyə çevrildikdə, həmçinin təcrübə tərəflər üçün əlçatan və bəlli olduqda, əgər oxşar işlər üzrə kassasiya şikayəti həmin təcrübəni nəzərə almadan və ya təcrübəni dəyişdirməyə yönəlmiş yeni dəlillərə istinad olunmadan verilmişsə, şikayət əsaslandırılmamış hesab edilə bilər.

5. Hüququn düzgün tətbiq edilmədiyinə və vahid məhkəmə təcrübəsinə dair dəlillər kassasiya şikayətində lazımi qaydada əsaslandırılmadıqda, eləcə də şikayət hüququndan sui-istifadə edildikdə İnzibati Prosessual Məcəllənin 96.2 və 96.3-cü maddələrinə əsasən kassasiya şikayəti mümkün sayılmaya bilər.

6. Qərardad 2024-cü il 01 yanvar tarixdən sonra verilmiş kassasiya şikayətlərinə münasibətdə tətbiq olunsun.

7. Qərardad Azərbaycan Respublikasının Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikasının Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

**Sədrlik edən** **Xəqani Məmmədov**